# "Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə"

*Sultan Rüfət*
*"Mövqe" qəzetinin müxbiri*
*(II yerin qalibi)*

"Xalça toxumağı almanlarla müharibədən qabaq öyrənmişəm. Eyni zamanda müharibədən sonra da bir müddət bu işlə məşğul oldum. Xalça toxumağın sirlərini isə mənə anam öyrədib. İlk xalçanı da anamla birlikdə toxumuşam. Həmin vaxt 13-14 yaşım olardı. Çəki ilə bizə sap, ip verirdilər. Toxuduqdan sonra aparırdıq "Kubinka" deyilən yerdəki xalça idarəsinə təhvil verirdik. Burada da zəhmət haqqımızı alırdıq". Bunu Abşeron rayonunun Görədil kənd sakini, yaşı artıq 94-ü haqlayan Məsmə Səlimova deyir.



**Dillər əzbəri olan "Görədil xalçaları"**

Yeniyetməliyi müharibə illərinə təsadüf edən Məsmə nənə o dövrdə elə xalça toxumaqla çörəkpulu qazandıqlarını da bildirir: "Müharibəyə qədər xalçaları anamın adına alıb toxuyurduq. Müharibə bitdikdən sonra isə artıq lazım olan ip və sapları öz adıma alırdım. O zamanlar kənddə çox insan xalça toxumaqla məşğul idi, kəndimizin sakini Balaxanım adlı gənc xanım həmişə birinci dərəcəli xalça toxuyurdu. Xalça toxuyarkən əsasən tünd göy, bəzən də qırmızı və sarı rəngli iplərdən istifadə edirdik. 60 yaşına qədər xalça toxumuşam. Bir çox kənd xanımlarına xalça toxumağın sirlərini öyrətmişəm. Ərə gedən xanımlar üçün də xalçalar toxumuşuq.

Fəaliyyətim dövründə 20-yə yaxın xalça toxumuşam. Bir xalçanı 1-2 ay ərzində toxuyub başa çatdırırdıq. Sonra palaz toxumağa başladım. Bununla yanaşı, gündüzlər kolxozda işləyirdim, gecələr isə xalça toxuyurdum. Bizə çeşni verirdilər, ona baxıb xalçanı toxuyurduq. Toxuduğumuz xalçaların ölçüsü 2-2,5 mert arasında olurdu. Hazırda təəssüf edirəm ki, kənddə xalçaçılığa maraq yoxdur. İndi fabriklərdə bu işlə məşğul olurlar. Burada da bir fabrik açılsa, gənclərimizə bu işin sirlərini öyrədə bilərik".

Əslində, Görədildə çoxları xalça müəssisəsinin açılmasını istəyir. Bu, həm sözügedən qədim sənət növünün yaşamasında mühüm rol oynayar, həm də gənc nəslin xalçaçılığın sirlərinə daha dərindən bələd olmasına gətirib çıxarardı. Onu da bildirək ki, Görədil Abşeron xalçaçılıq məktəbinin tarixən inkişaf etdiyi ən mühüm ərazilərdən biri olub. Tədqiqatçılar bildirir ki, burada toxunan xalçalar daha yumşaq olması, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Bakının digər kəndlərində olduğu kimi, burada da toxunan xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyıb və daha çox "Görədil xalçaları" adı ilə təqdim olunub. "Görədil xalçaları" həmişə ilmələrin sıxlığı ilə də seçilib. Belə ki, əksər hallarda bu xalçaların hər bir kvadratmetrində 160-170 min ilməyə qədər düyün olur. Hər kvadrat metrində 250 min ilmə olan Görədil xalçalarına isə indi çox az rast gəlinir.



Xalça. Yun. Xovlu. 342x163. XIX əsrin sonları.
Görədil kəndi, Abşeron rayonu, Azərbaycan.



Xalça. Yun. Xovlu. 179x106. XIX əsrin sonları. Görədil kəndi, Abşeron rayonu, Azərbaycan.



**Mədəniyyətimizin sütunu sayılan beşliyin mühüm komponenti**

Azərbaycanın digər bölgələrində toxunan xalçalar kimi, Görədil xalçaları da mədəniyyətimizin sütunu sayılan beşliyin əsas komponentlərindəndir. Məlumdur ki, sənət adamları tərəfindən qeyd olunan beşliyə söz, səs, xalça, miniatür və milli memarlığımız aid olunur. Həmin beşlik isə bir mənbədən qaynaqlanır, onların kökündə bir inanc ruhu dayanır. Təqdirəlayiq haldır ki, bu beşliyin yaşayıb inkişaf etməsinə indi dövlət tərəfindən də hər cür qayğı göstərilir və xalçaçılıq da bütün bunlardan nəsibini alaraq özünün yeni inkişaf yoluna qədəm qoymaqdadır. Prezident İlham Əliyevin bu xüsusda müvafiq sərəncam və göstərişləri, yenə dövlət qayğısı və diqqəti nəticəsində ərsəyə gələn Azərbaycan Xalça Muzeyi, fəaliyyəti ilə xalçaçılıq sənətinin yaşamasına mühüm töhfələr verən "Azər-İlmə" Xalçaçılıq Mərkəzi qeyd olunanların real təsdiqidir. Görülən işlərin nəticəsidir ki, xalçaçılığa maraq getdikcə artır.

Ölkəmizə təşrif buyuran turistlər üçün də xalçalarımız ötən əsrlərdə olduğu kimi yenə öz cəlbediciliyini saxlayır. Bunun real şahidi olmaq üçün yolunu bir dəfə Bakının incilərindən olan İçərişəhərdən salmaq kifayətdir. Buranı gəzən turistlərin marağında olan əsas mədəniyyət nümunələrindən biri də məhz xalçalardır. Məsələn, Sankt-Peterburqdan olan Mariya Pavlovna bildirir ki, Azərbaycan mədəniyyət nümunələrini çox bəyənir: "Azərbaycana ikinci dəfədir ki, gəlirəm. Hər dəfə də İçərişəhəri mütləq gəzirəm. Bu məkan, xüsusən də Qız qalası qeyri-adi, gözəl və əsrarəngiz məkanlardan biridir. Milli mədəniyyətiniz, adət-ənənələriniz də çox xoşuma gəlir. Vətənimə dönərkən özümlə müxtəlif suvenirlər alıb aparacam. İmkan edə bilsəm, ölçüsü kiçik bir xalça da alacağam. Deyim ki, Azərbaycan xalqına məxsus xalçaların da öz gözəlliyi var. Bir qədər obrazlı desəm, Azərbaycan xalçalarının hər birinin orijinal naxışları var. Bu xalçalara olan marağıma görə, Bakıda Xalça Muzeyinə baş çəkdim. Bu ecazkar məkana yəqin ki, bir daha məmnuniyyətlə səfər edəcəyəm". Əslində, eyni fikirləri Mariya Pavlovna kimi bir çox əcnəbidən də eşitmək mümkündür.

**"İstərdim ki, xalçaçılıq sənəti yenidən kəndimizdə bərpa olunsun"**

Azərbaycan dekorativ-tətbiqi sənətinin nadir incilərindən olan Görədil xalçaları da ölkə sərhədlərindən kənarda, xüsusən də qonşu ölkələrdə, həmçinin, Orta Asiyada, Avropada daim böyük heyranlıqla qarşılanıb. Bu mənada həmin xalçaların hazırda daha çox sayda toxunub satışa çıxarılmasına ehtiyac var. Bunu Görədil kəndinin digər sakini Tutuxanım Əliyeva da xüsusi olaraq vurğulayır. 75 yaşlı Tutuxanım Əliyeva bildirir: "Gözümü açandan, özümü tanımağa başlayandan kənddə çoxlarının xalçaçılıqla məşğul olduğunu görmüşəm. Hələ uşaq yaşlarından bu işə məndə marağın yaranmasında xalalarımın böyük rolu olub. Onlar da xalçaçılıqla məşğul idilər. Bu xalçaları toxuyub hökumətə təhvil verirdilər. Hökumət nümayəndələri kəndləri gəzib, xalça toxuyanlar üçün hanalar qurașdırırdı ki, onlar işə başlaya bilsinlər. Şəhrəbanu adında bir xanım ayda bir dəfə gəlib yoxlayır, hazır olan malı aparardı.

İlk xalçanı 7-ci sinifdə oxuyarkən, 14 yaşında toxumuşam. Hər gün dərsdən sonra yaxınlıqda yaşayan Məsmə xanıma kömək edərdim, onun baş xalçasını mən toxumuşam. Beləcə xalçaçılığın sirlərinə dərindən bələd oldum. Ardınca hökumətin sifarişi ilə anamla birlikdə xalça toxumağa başladım. Bu sahədə peşəkarlığı da anamgildən öyrəndim. Sonradan isə bu məsələ unuduldu. Hökumətin sifarişləri olmadığından burada xalça toxunması demək olar ki, dayandı. Bu da onunla bağlı idi ki, kənd əhalisi əsasən kolxoza cəlb olunmuşdu. Buna baxmayaraq, kənddə bir çoxları, o cümlədən mən də özümüz üçün xalça toxumaqda davam edirdik.

İp, sap da əyirirdik. Yaxşı xalçalar toxuyur, gözəl naxışlar salardıq. Bizə çeşni verirdilər, ona baxaraq gözəl naxışlarla bəzədilən yaxşı xalçalar toxuyurduq. İşə başlayandan son günə qədər toxuduğum xalçaların sayını unutmuşam. Lakin sonradan xalçaçılıqdan uzaqlaşdım, paltar tikməklə məşğul oldum. İndi isə kənddə bu sənətlə məşğul olan yoxdur.

Onu da bildirim ki, Görədil xalçaları xovlu xalça növlərindəndir. Təəssüf edirəm ki, evdə toxuduğum xalçalardan saxlamamışam. Onabuna vermişik. İndi kənddəki evlərdə həmin

dövrdə toxunan xalçalardan çox az qalıb. Xalça yığanlar gəlirdi, biz də əl işimiz olan xalçaları onlara verirdik. İndi toxuduğum gözəl xalçalardan evimdə belə qalmayıb. Onlara elə gözəl bəzəklər vururdum ki! Övladlarıma da bu sənəti öyrədə bilməmişəm. Uşaqlarım başqa-başqa sənət növlərini seçiblər. İstərdim ki, xalçaçılıq sənəti yenidən kəndimizdə bərpa olunsun. Amma bunun üçün gənclərdə maraq oyatmaq lazımdır. Yəqin ki, sifariş olarsa, gənclər arasında yenə bu sənətə maraq artar. Bu məsələni nəzərdə saxlamalarını çox arzu edirəm".

**Görədildə xalçaçılıq müəssisəsinin yaradılması perspektivlidir**

Hazırda Azərbaycanın müxtəlif bölgələrində xalçaçılıq sənətini yaşadan müəssisələr fəaliyyət göstərir və onların bəziləri ölkəmizin yeni müstəqillik tarixində yaranıb. Həmin müəssisələr hazırda Quba, Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ xalçaçılıq məktəblərinin ənənələrini uğurla yaşadırlar. Bu, həm də 1993-cü ildən etibarən xalçaçılığın yenidən dirçəlməsinin təzahürlərindən biri hesab edilir.

Sözügedən kontekstdə perspektivdə Görədildə də xalçaçılıq müəssisəsinin yaradılması istisna olunmur. Bu işdə yerli sahibkarların özlərinin də yaxından iştirak etməsi zəruri sayılır. Xatırladaq ki, iş adamlarının uğurlu fəaliyyətini təmin etmək məqsədilə özəl sektorun inkişafına dair proqramlar qəbul edilir, onlara güzəştli şərtlər əsasında kreditlər ayrılır. İqtisadçı Vüqar Bayramov da bildirir ki, Azərbaycan xalçalarına tarixən böyük maraq olub və bu sahədə fəaliyyət göstərən yeni müəssisələrin açılması mümkündür: "İş prosesinin düzgün qurulması belə müəssisələrin fəaliyyətinin uğurla təmin edilməsinə gətirib çıxarardı. Bakı kəndlərində, məsələn, elə barəsində söhbət açdığınız Görədildə



Xalça. Yun. Xovlu. 288x103. XX əsrin əvvəlləri.
Görədil kəndi, Abşeron rayonu, Azərbaycan.





Xalça. Yun. Xovlu. 323x92. XX əsrin əvvəlləri.
Görədil kəndi, Abşeron rayonu, Azərbaycan.

belə müəssisələrin böyük perspektivi ola bilər. Çünki bölgələrə nisbətən paytaxtda müştəri kontingenti daha çoxdur. Digər tərəfdən, Azərbaycana gələn turistlərin çoxu məhz Bakıda olur, buradan alış-veriş edirlər. Deməli, Bakıda və onun kəndlərində toxunan xalçaların daha tez və çox xərc çəkmədən müştəriyə təqdim edilməsi imkanı var. Keyfiyyətli və gözəl işin isə hər zaman müştərisi olur".

Onu da nəzərə almaq lazımdır ki, həm paytaxtda, həm də bölgələrdə dövlətin və onun rəhbərinin ayrı-ayrı xalq sənəti sahələrinin inkişafına böyük diqqət və qayğısı var. Bu mənada Görədil də daxil olmaqla, Bakı kəndlərində xalçaçılığın yenidən dirçəldilməsi üçün lazımi şərait mövcuddur. Bu, Azərbaycan mədəniyyətinin, o cümlədən xalçaçılığın inkişafı və onun nailiyyətlərinin dünya miqyasında təbliği sahəsində görülən işlərə də özünəməxsus töhfə verərdi. Ən əsası isə Azərbaycan xalçalarının unudulmaqda olan çeşnilərini bərpa etmək, milli xalçalarımızın bədii ənənələrini yaşatmaq və gələcək nəsillərə çatdırmaq baxımından yuxarıda qeyd olunanlar mühüm əhəmiyyətə malikdir.

Təqdirəlayiq haldır ki, yaşı eramızdan əvvəl ikinci minilliyə təsadüf edən və özünəməxsus inkişaf yolu keçən Azərbaycan xalçaçılığı hazırda özünün yeni yüksəliş mərhələsinə qədəm qoymaqdadır. İlk növbədə, ona görə ki, ölkəmizdə həyatın bütün sahələrində olduğu kimi, Azərbaycan mədəniyyətinin, o cümlədən onun tərkib hissəsi olan xalçaçılığın inkişafı və təbliği üzrə geniş iş aparılır. Artıq xalçaçılığın inkişafının qanunvericilik bazası da yaradılıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Azərbaycan xalçaları UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Eyni zamanda bu gün ölkəmizdə xalçaçılıq tədqiq olunaraq inkişaf etdirilən sənətlər sırasında yer alır. Bu fonda qeyd edək ki, "Azər-İlmə"nin "Azərbaycan xalçaları bütün qrupları ilə" adlı fundamental layihəsi çərçivəsində reallaşdırdığı tədqiqatlar zamanı Azərbaycanın ayrı-ayrı bölgələrində əsrlər boyu təşəkkül tapmış xalçaçılıq ənənələri, çeşnilər, üslublar, rəng və kolorit xüsusiyyətləri, ustad xalçaçılar, onların davamçıları haqqında dəyərli məlumatlar əldə edilib. Yaradılan möhkəm baza isə xalçaçılığı bundan sonra daha böyük gələcək gözlədiyini deməyə əsas verir.